**2 Avqust Kino İşçilərinin Peşə bayramı Günüdür**

*Avqust ayının 2-si Azərbaycanda Milli Kino Günüdür. Ulu öndər Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə həmin gün kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur.*

# Milli kinolarımız tariximizin bir parçasıdır



Azərbaycan kinosu öz fərqliliyi və milliliyi ilə hər zaman seçilib. Milli dəyərlərimiz, adət-ənənələrimiz kinolarımızda qorunub saxlanılıb. Müstəqil olmadığımız dövrlərdə belə, xalqımızın qan yaddaşını, kimliyini özündə ehtiva edən məqamlar çox ustalıqla canlandırılıb. Eyni zamanda maarifləndirici rol oynayan milli kinolarımızda bədii təxəyyül və rejissor məharəti ilə xalqın qəhrəmanlığı, milli-mənəvi ruhu tətbiq edilib.

Bəzən hansısa bir filmlə ağlayıb, gülmüşük, baş qəhrəmanlara bənzəməyə çalışmışıq. Bəzən də baxdığımız filmin təsirindən günlərlə çıxa bilməmişik. Elə personajlar, obrazlar olub ki, onlar cəmiyyətin güzgüsü rolunda çıxış edib. Hətta bir çox aktyorları kinodakı obrazları ilə tanımışıq. Bu baxımdan, kino böyük təsir gücünə malikdir.

Azərbaycan kinosunun yaranma tarixi 1888-ci il avqust ayının 2-nə təsadüf edir. İlk film fotoqraf və nasir Aleksandr Mişon tərəfindən lentə alınıb. 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətlər tərəfindən Bakı və Tiflis şəhərində prokat kontorları yaradılıb. Həmin il adıçəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişlərinə başlayır. Filmi çəkmək üçün rejissor Boris Svetlov Peterburqdan dəvət olunur. Təbiət mənzərələri Bakı və ətraf kəndlərdə, pavilyon səhnələri isə Tiflisdə çəkilir. Lütfəli bəy rolunu canlandırmaq Hüseyn Ərəblinskiyə həvalə edilir. Melodram janrında çəkilən filmdə baş verən hadisələr dövrün həyat həqiqətlərini əks etdirirdi. Bu filmlə Azərbaycan kino tarixində bədii film çəkilişinin əsası qoyulur.

1916-cı ildə Bakıda Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkilib, 1919-cu ildə isə Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə "Təntənə" adlı tammetrajlı film ekranlarda nümayiş etdirilib.

1923-cü ildə təsis olunan Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorlarının milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirib. 1925-ci ildə Şamil Mahmudbəyovun təşəbbüsü ilə milli rejissor və aktyor kadrları hazırlamaq üçün AFKİ-nin nəzdində studiya təşkil edilib. 30-cu illərdə Seyfulla Bədəlov, Vladimir Yeremeyev, Ələsgər Ələkbərov və başqaları kinematoqrafiya sahəsində fəaliyyətə başlayıblar. Bu sənətkarların filmlərində əsasən respublikanın həyatı, kolxoz quruculuğu, mədəniyyət sahəsindəki uğurlar, neft sənayesinin yeni texnika ilə təchiz olunması və s. əksini tapırdı. Sənədli filmin imkanları daxilində bitkin insan obrazının yaradılması dövrün nailiyyətlərindən idi. İlk səsli film, "Mavi dənizin sahilində" bədii filmi 1935-ci ildə çəkilib. Bundan sonra səsli filmlərin çəkilişində yeni imkanlar yaranıb. Məsələn, 1936-cı ildə yazıçı Y.V.Çəmənzəminlinin rus dilindən tərcümə etdiyi "Çapayev" filmi Azərbaycan dilində səsləndirilib. Bu isə kino sənətimizdə ilk dublyaj filmi olub.

Böyük Vətən müharibəsi illərində keçmiş Sovet İttifaqında 3,5 milyon metr kinoplyonka çəkilib, 34 tammetrajlı, 67 qısametrajlı film, 24 cəbhə buraxılışı, "Söyuzkinojurnal" və "Novosti dnya" kinojurnallarının 465-dən artıq nömrəsi istehsal edilib. Çəkilən film və kinoxronikaların hər birində Azərbaycan kinematoqrafçılarının böyük əməyi olub.

Azərbaycan istehsalı olan filmlər keçmiş SSRİ respublikaları ilə yanaşı, bir çox xarici ölkələrdə də məşhurlaşıb. Belə filmlərimizdən biri də 1945-ci ildə ekranlara çıxan "Arşın mal alan"dır. Ümumiyyətlə, film Azərbaycan kinosunda musiqili komediya janrının əsasını qoymaqla yanaşı, həm də bu janra marağı xeyli artırdı. Kino tariximizdə əlamətdar hadisəyə çevrilən film digər ölkələrdə də seyrçi məhəbbəti qazandı. Onu da qeyd edək ki, "Arşın mal alan" Stalinin ən sevimli operettalarından olub. Film ilk nümayişindən sonra iki il ərzində respublikaya 5 milyard rubl qazanc gətirib. 86 dilə tərcümə edilən film indiyədək dünyanın 140-a yaxın ölkəsində nümayiş etdirilib. Azərbaycan kinosunun daha bir yeniliyi isə 1956-cı ildə olub, ilk dəfə rəngli film çəkilib. Bu ekran əsəri isə "O olmasın, bu olsun" filmi idi.

Beləcə, Azərbaycan kinosu öz inkişaf və intibah dövrünə qədəm qoyaraq 1970-1980-ci illərdə daha böyük uğurlara imza atıb. Belə ki, həmin ərəfədə böyük və fundamental əsərlər ekranlaşdırılmaqla yanaşı, eyni zamanda ölkəmizdə güclü rejissor truppası, aktyor heyəti formalaşıb. O illərin məhsulu olan "Uzaq sahillərdə", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Nəsimi", "Dədə Qorqud", "Babək", "Dəli Kür" və digər fundamental ekran əsərləri yaradılıb. Bu filmlər xarakter, kolorit və obraz baxımından milli-mənəvi dəyərlərimizi təbliğ edib, azərbaycançılıq, milli kimlik və adət-ənənələrin nümayişini həyata keçirib. Azərbaycan kinosunun süjet xətti təkcə qəhrəmanlıqdan ibarət olmayıb. Kinematoqrafçılarımızın çəkdikləri filmlər janr müxtəlifliyi, musiqili komediya, dedektiv, macəra, psixoloji, qrotesk, sosial pamflet, nağıl və digər janrlarda da özünü mükəmməl şəkildə göstərib.

Azərbaycan milli kinosuna ümummilli lider Heydər Əliyev tərəfindən böyük qayğı göstərilib. 1993-cü ildə ulu öndərin diqqət və qayğısı sayəsində milli kinomuz yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il avqustun 19-da qəbul edilmiş "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müasir müstəqil respublikada dövlət kinematoqrafiyasının hüquqi bazası formalaşdırılıb. 1996-cı ildə Azərbaycan Dövlət Film Fondunun yaradılması filmlərimizin mühafizəsini təmin edib.

Hər il avqustun 2-də Azərbaycanda Kino Günü kimi qeyd edilir. Bu isə təkcə kino işçilərinin deyil, həm də Azərbaycan tamaşaçısının bayramıdır. 2000-ci il dekabrın 18-də ulu öndər Heydər Əliyevin imzaladığı Sərəncam Azərbaycan kino tarixində əlamətdar gündür. Bu gün də kinomuza dövlət tərəfindən qayğı göstərilir, milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Dövlət başçısı İlham Əliyevin "Azərbaycan kino sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 23 fevral və "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2008-ci il 4 avqust tarixli sərəncamları böyük əhəmiyyət kəsb edir. Dövlət qayğısının nəticəsidir ki, son illər filmlərimiz 50-dən çox beynəlxalq festivalda iştirak edib. Bu gün də Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında işlər davam etdirilir.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**